

ƏBÜLFƏZ ÜLVİ

## MÜƏLLİM ÖMRÜ

(Həyat yoldaşımın yaşla əlaqədar işdən ayrılmasına)

*Bu gün nisgil gördüm üzündə çox-çox,
Elə bil gözlərin dərin quyuydu.
Gözündən süzülən adicə su yox,
Peşəndən yaranan ömür suyiydu.*

*Qazancın olubdur hər zaman əhsən,
Müəllim əliylə şər də yox olub.
Sərvətin çoxuna meyl etməmisən,
Şöhrətin maaşdan qat-qat çox olub.*

*İşdən ayrılmana qəmli baxma, sən.
Sanmıram həyata eşq, həvəs keçir.
O qədər saçına toplanıbdı dən,
Sanki toplamadan, saça dərs keçir.*

*Yox-,yox saçlarında o nurdur yanır,
Hikməti duyilur dərhal, baxanda.
O ağ rəng o zaman rəğbət qazanır,
O ağ üzdən üzüb saça çıxanda.*

*Sənə üz tutmayıb zərrə də ləkə,
İdrakın biliyə, elmə him olub.
Bu qədər Rəbb ondan sevilir, bəlkə,
Onun da əvvəli müəllim olub.*

*Solmur işlədiyin illərin yazı,
Sehrə bax, gör aylar illər nə edir.
Sanki müəllimin əmək stajın,
Onun öz ömrünə əlavə edir.*

## NİYƏ?

*Bu dünya tamamən məni çaşdırır,
Yalan ayaq tutub yüyürür, niyə?
Biri ayaq altda sərvət basdırır,
Biri ayağnı sürüyür, niyə?*

*Qara saç bir vaxtdan sonra qar verir,
Dost verən təbiət, həm də sar verir,
Ağacı əkirsən meyvə, bar verir,
İnsanı əkirsən çürüyür, niyə?*

*Elə boşalıbdır yəni yüyənlər?
Çoxalıb nahaqdan qəlbə dəyənlər,
Ağzın marçıldadır haram yeyənlər,
Halal yeyən ağız öyüyür, niyə?*

*Canım, ha dərd eylə, canım ha yalvar,
Vedrənin səsinə susur qavallar,
Cavab tapmadığım bircə sual var,
Kiçiklər nə yeyir, böyüyür niyə?*

*Gözə kül üfürmə , ey zalım fələk,
İnsanda şüur var, deyil göbələk,
Güya heç kəs bilmir arxalı köpək,
Aslanın üstünə hürüyür niyə?*

## QALMIR

*İnsan ol, qəlbindən şahlıq keçirmə,
Dünyada şahlıq da heç Şaha qalmır.
Köksündə eşq yaşat, nifrət içirmə,
Eşqin zərrəsi də günaha qalmır.*

*Başın baş yeri var, şüurun şüur;
Bükülmüş beli də düzəldir qürur,
Hər kəsdə hər əza öz işun görür,
Ürəyin minnəti dalağa qalmır.*

*Yalnız özün tutar, yalan qarğısa,
Əlacı tapılar daş da ağrısa,
Yaxanın düyməsi haqqa bağlısa,
Heç kəsin əlində bu yaxa qalmır.*

*Qu kimi yaşadır taleyi Qunu,
Qartala yaraşmaz qarğanın donu,
Bu günə qədərsə ömrünüm sonu,
Neyləsən bir an da sabaha qalmır.*

*Ülvi, ülvilikdən insan tac alır,
Hər əməl özünün lövbərin salır,
Nə qalır Allahdan insana qalır,
İnsanın heç nəyi Allaha qalmır.*

## DÜNYANIN

*Söhbət yenə düşdü ulu dünyadan,
Dübərdi dağılıb ulu dünyanın.
Dünyanın özü də qan ağlayır, qan,
Qanı siyu yumur, sulu dünyanın.*

*Görəsən nə vardır axı zatında,
Yalan kəhər çapır, düz çöp atında,
Doğuşdan doğuldum ağa adında,
Aldadıb, etdilər qulu, dünyanın.*

*Bax "burda ağlamaq tutur Kərəmi",
Zamanə haqqı da edir hərəmi,
Elə iflic günə salır ərəni,
Beləcə çoxalır dulu, dünyanın.*

*Ey insan, pay qazan, yala can atma,
Ucal Çinar kimi, kola can atma,
Sərvətə can atma, mala can atma,
Qalır bu dünyada malı, dünyanın.*

*Rəbbə önəm verin, Rəbbə seçimdə.
Tək odir ən güclü silah üçün də,
İncitsək, istəsə bir an içində,
İçini boş qoyar dolu dünyanın.*

*Ülvi, sanma hər iş xərcə düzəlsin,
Görmüsən nə isə mərcə düzəlsin?
Ay Mməmməd bu dünya necə düzəlsin?
Yoxdursa düzəlmək yolu, dünyanın.*

## GÖRMÜŞƏM

*Mən həyata gör gəlmişəm haçandan,
Çox vəlvələ, çox zəlzələ görmüşəm.
Nə tez, nə gec, gözlərimi açandan,
Bu dünyanı elə belə görmüşəm.*

*Alçaq özün dağ sanıbdır dik üstdə,
Daz görmüşəm, dava salıb tük üstdə,
Tikan elə tikan qalıb kök üstdə,
Göz aldadan gülü tələ görmüşəm.*

*Su içmişəm, su, köpüyə dəyməyib,
Can dəyibdir, daş təpiyə dəyməyib,
Diriliyim üç qəpiyə dəyməyib,
Dirilıyi ölə-ölə görmüşəm.*

*Qaçıb ülfət bağladığım dostlarım,
Boğazını yağladığım dostlarım,
Dərdlərinə ağladığım dostları,
Dərdlərimə gülə-gülə görmüşəm.*

*Sökən çoxdur,yox dünyanın tikəni,
Sevməmişəm "bəlkə" adlı ləkəni,
Çox görmüşəm əkiləndə bəlkəni,
Göyərəndə mən "Şənbəllə" görmüşəm.*

*Namərd qonşu tora atıb sədamı,
Qada verən almayıbdır qadamı,
Təsbeh alıb, Həccə gedən nadanı,
Qayıdanda "Tülkü lələ" görmüşəm.*

*Çox görmüşəm sonu matəm, nağıl, çox,
Dəyişdirib məni idrak, ağıl çox,
Deməsinlər Ülvi bəyi oğul yox,
Bu vətənə, Xalqa şələ görmüşəm.*

## PAYIZ

*Payız qoymayıbdır bağlarda halət,
Sarı rəng bir deyil, çox izə düşüb.
Elə qaş-,qabağın töküb təbiət,
Sanki borc pul alıb, faizə düşüb.*

*Ömrü uzanıbdır gecənin, nə qəm,
Az qalır bir gecə yüz il görünsün.
Bəlkə də qızıla hərisliyindən,
Yarpaqlar saralır, qızıl görünsün.*

*Ağaca dırmanmır daha sarmaşıq,
Özü də mat-mətəl qalıb özünə,
Elə bil göylərin gözü qamaşır,
Buludu eynək tək taxır gözünə.*

*Dağların saçına tökülür ağlar,
Elə bil fikirdən çöküb, aşacaq.
Bir də insan kimi deyil ki, onlar,
Yenə yaz gələndə cavanlaşacaq.*

*Şimşək tez-,tez açır səmada şırım,
Tez-tez istifafə edir bu fənddən.
Buluda qışqırır sanki, ıldırım,
Yağıb təmizləsin torpağı dərddən.*

*Günəş solğun halda baxır gör necə,
Sanki soyğunçular onu soyublar.
Ya da oğurlayıb gecə, gizlicə
Yerinə xəlvəti ayı qoyublar.*

*Bir işə heyrətli qalmışam, yalnız,
Sevgi xilaf çıxmır yenə, sözünə.
Nə qədər öfkəli olsa da payız,
Toylar bu fəsili seçir özünə.*

*Bir də ondan deyil el, ona qarşı
Payız ən gözəllər sayına düşüb.
Çünki vətənimin qələbə marşı,
Elə bu gözəlin payına düşüb.*

## QORU

*Gözəllik rəmzidir qaşın qarası,
Calış bu boyadan üzünü qoru.
Daş dəysə sağalar daşın yarası,
Gözün dəyməsindən gözünü qoru.*

*Kədərdən dırmanır kirpiyə yaşlar,
Aşlığın itirir, yal olşa aşlar,
Sözdən dava düşər, savaş da başlar,
Bunlar baş verməmiş sözünü qoru.*

*Gülərək əkəndə, daş da gül olar,
Həya həya olsa, üzə tül ölar,
Küldən od törəməz, oddan kül olar,
Külə düşməmişdən közünü qoru.*

*Qoyma kin yaratsın ürəyində yurd,
Qıyma məhəbbətə çöksün boz bulud,
Doyar bir quzuyla dördayaqlı qurd,
İki ayaqlıdan quzunu qoru.*

*Ülvi, buz divardan olsa dörd yanın,
Qəlbin saf qan vursa, buzlamaz qanın,
Hava istinəndə, istinər canın,
Adam soyuğundan özünü qoru.*

## YOX

*Aman Allah, balalayır eyiblər,
Bu dünyada əyri çoxdir, rəndə yox.
Qurd dumanlı gün axtarar deyiblər,
Axı indi duman da yox, çən də yox.*

*Gülən göz yox, yalnız gözü nəm basır,
Bir işə bax, həm ağladır, həm basır,
Daransa da min yol, saçı dən basır,
Bəlkə günah saçılardadır, dəndə yox?*

*Mizan susur basıldıqca düz, haqqlar,
Bilmir daha nə eyləsin nahaqlar,
Gündə min-min canı alır nifaqlar,
Belə nifaq, axı heç bir dində, yox.*

*Acımadan dağıdılır şəhər, kənd,
Zaman acı zəhər verir, deyir qənd,
İnsanlarda olan fitnə, feil, fənd,
İblisdə yox, şeytanda yox, cində yox,*

*Tanrım necə de olmayım mən bezar,
Dərd sinəmdə dükan açıb, qəm bazar,
Niyə məni yaxalayır hər azar,
Bu dünya da məndən başqa bəndə, yox?*

## KAŞ

*Nisgildən dünya da saçını yolur,
Dünyada naqislik qalmayaydı kaş .
Görən gülün ömrü niyə az olur?
Bir dəfə açdısa, solmayaydı,kaş.*

*Haqqa düz baxmasa itər göz nuru,
Bulaq bulaq, oımaz axmasa duru,
Qurbağa məğməsi olan "qur-qur"u,
Zaman qarnımıza salmayaydı kaş .*

*Yol vermə hallansın adın yalanda,
Nadürüst iş görsən, sevmız balan da,
Gözəllik yaradır bulud dolanda,
Gözlər bulud kimi dolmayaydı kaş.*

*Soyüd də gərəkdir, baxma bəhər yox,
Dərd verən nankora axşam, səhər yox,
Kim, kimə nə versə, alsa zərər yox,
Tanrı verdiyini almayaydı kaş .*

*Ülvi, ülvilikdən heç vaxt etmə ar,
Xeyir ümmanında şər çəkməz avar,
Bütün insanların iki üzü var,
İkiüzlülüyü olmayaydı kaş.*

**17 noyabrda Naxçıvanda yaşayan şairin 70 yaşı tamam olur. Bu münasibətlə onu "Ədalət"in oxucuları adından təbrik edir, can sağlığı, yeni yaradıcılıq uğurları arzu edirik.**